# #Xalqüçün təbliğat-təşviqat kampaniyası uğurla davam edir

## Ölkəmizdə gənclərə böyük etimad göstərilir





Ötən gün 23 dekabrda keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar "Xalq üçün" şüarı altında təbliğat-təşviqat kampaniyası çərçivəsində Səbail rayonunda ilk dəfə səs verəcək gənclərlə görüş keçirilib.

Çıxış edən Yeni Azərbaycan Partiyasının (YAP) səlahiyyətli nümayəndəsi, partiyanın Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev bu il ilk dəfə səs verəcək gəncləri təbrik edərək bildirib ki, hər bir müasir demokratik dövlətin siyasi həyatında müstəsna əhəmiyyət kəsb edən seçkilərdə ilk dəfə iştirak etmək və öz siyasi iradəsini nümayiş etdirmək imkanı əldə etmək hər bir gəncin həyatında unudulmaz tarixi hadisədir: "Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə gənclərə göstərilən diqqət və qayğı ilbəil artır, bu sahədə reallaşdırılan uğurlu layihələrin sayı və miqyası günbəgün genişlənir. Gənclər siyasəti cənab Prezident İlham Əliyevin siyasətinin prioritet istiqamətlərindən biridir. Məhz bu yüksək diqqətin nəticəsidir ki, bu gün ölkəmizdə baş verən bütün ictimai-siyasi proseslərdə gənclərin rolu artır, yüksək potensiallı Azərbaycan gəncləri cəmiyyət həyatının bütün sahələrində, idarəetmə strukturlarının bütün pillələrində layiqincə təmsil olunur və adekvat işlər görürlər".

Gəncləri seçkilərdə maksimum fəal olmağa çağıran YAP Gənclər Birliyinin sədri, partiyanın Siyasi Şurasının üzvü Seymur Orucov əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən gənclər siyasətindən danışıb. O qeyd edib ki, bu gün gənclərə böyük etimad göstərilir. Vurğulayıb ki, ölkəmizdə bələdiyyə institutunun inkişafında və bu sahədə görülən işlərdə gənclərin böyük rolu vardır.

Görüşdə Bibiheybət bələdiyyəsinə seçkilərdə iştirak edən namizədlər - Elmar Məmmədov, Nərgiz Ələkbərova, Rəşad Sadıqov, Nəcəf Mustafayev, Səbail bələdiyyəsi üzvlüyünə namizədlər - Səmədağa Aslanov, Nihad Allahyarlı, Cavid Yusubov, partiyanın Səbail rayon təşkilatının sədr müavini Mehman İsmayılov, YAP Səbail rayon təşkilatı Gənclər Birliyinin sədr müavini Fuad Heydərli, Azərbaycan Dövlət Pedaqoji Universitetinin I kurs tələbəsi Fidan Abbasova və Qərbi Kaspi Universitetinin I kurs tələbəsi Elnur Məhəmmədli çıxış edərək bildiriblər ki, Yeni Azərbaycan Partiyası indiyədək keçirilən bütün seçkilərdə olduğu kimi, bu bələdiyyə seçkilərində də növbəti möhtəşəm qələbəsini qazanacaqdır.

Tədbirdə səbailli gənclər yekdilliklə Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləyəcəklərini bildiriblər.

**Cavid Əkbərov,**
***"İki sahil"***

# Ceyranbatan qəsəbəsində YAP-ın namizədləri ilə seçicilərin görüşü






23 dekabrda ölkəmizdə keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası (YAP) Abşeron rayon təşkilatı Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Kampaniya çərçivəsində Ceyranbatan qəsəbəsində YAP-ın namizədləri ilə seçicilərin görüşü keçirilib.

**Görüşü giriş nitqi ilə açan YAP Abşeron rayon təşkilatının sədri Bilman Vəliyev bildirib ki,** Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkəmizdə keçirilən bütün seçkilərin qalibi olan Yeni Azərbaycan Partiyası növbəti bələdiyyə seçkilərində də qalib gəlmək əzmindədir.



B.Vəliyev deyib ki, YAP bu gün Prezident İlham Əliyevin Sədrliyi ilə inkişaf yolunda irəliləyir: "Yeni Azərbaycan Partiyası Azərbaycan dövlətinin müstəqilliyinin qorunub saxlanılmasında və dövlətçiliyimizin inkişaf etdirilməsində müstəsna xidmətləri olan siyasi təşkilatdır. Ulu öndər Heydər Əliyev tərəfindən yaradılmış və Prezident İlham Əliyevin Sədrliyi ilə uğurla fəaliyyət göstərən, Azərbaycanımızın tərəqqisi naminə fədakarlıq nümayiş etdirən YAP nəinki regionda, hətta dünyada sayılıb-seçilən siyasi təşkilatlardan birinə çevrilib".

**Görüşdə YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə çıxış edərək bildirib ki,** bələdiyyələr daim vətəndaşların mənafeləri naminə yerli əhəmiyyətli məsələlərin həllində iştirak edir, sakinlərin etibarını qazanmağa və cəmiyyətimizdə özünəməxsus yer tutmağa səy göstərirlər. Ötən dövrdə bir çox bələdiyyələr müsbət təcrübə qazanıb, onların cəmiyyətdə rolu artıb.

V.Rəhimzadə, həmçinin qeyd edib ki, Azərbaycan demokratik inkişaf yolunda dinamik addımlarla irəliləyir: "Bütün bunlar onu göstərir ki, Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin nəticəsi inkişaf və sabitlikdir. Ona görə də Abşeron rayonu ictimaiyyəti bu inkişafa, sabitliyə səs verməklə növbəti dəfə Yeni Azərbaycan Partiyasının namizədlərinə etimad göstərməlidirlər".

**Daha sonra YAP-ın Ceyranbatan qəsəbə bələdiyyəsinə üzvlüyünə namizədi Cavanşir Zeynalov öz platforması barədə seçicilərə ətraflı məlumat verib.**

**Sonda qərargah üzvləri Bayram Hüseynzadə və Nadir Ağayev çıxış edərək qeyd ediblər ki,** vətəndaşların sosial rifah halının yaxşılaşdırılması, məşğulluq səviyyəsinin artırılması, bütövlükdə, inkişafa xidmət edən əməli tədbirlərin görülməsi məhz YAP-ın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində mümkün olub. Məhz buna görə də abşeronlu seçicilər dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində YAP-ın namizədlərinə səs verəcəklər.

**Rəşad Bağırov,**
***"İki sahil"***